27 iyun 2018-ci il

CEPEJ(2018)7

# ƏDALƏT MÜHAKİMƏSİNİN SƏMƏRƏLİLİYİ ÜZRƏ AVROPA KOMİSSİYASI (CEPEJ)

## Mediasiya bacarıqlarının inkişafı üzrə alətlər dəsti
## CEPEJ-in mediasiyaya dair rəhbər prinsiplərinin həyata keçirilməsinin təmin edilməsi

## Vəkillər üçün mediasiya üzrə təlimat

*Sənəd Avropa Vəkil və Hüquqşünas Cəmiyyətləri Şurası (CCBE) ilə birgə hazırlanmışdır*

*Hazırkı sənəd Avropa Vəkil və Hüquqşünas Cəmiyyətləri Şurası (CCBE) tərəfindən 23 mart 2018-ci ildə qəbul edilmişdir. CEPEJ-in Mediasiya üzrə İşçi Qrupunun (CEPEJ-GT-MED) 2017-ci ilin may ayında keçirilmiş ilk iclası zamanı CCBE-dən xahiş edilmişdir ki, Avropa Şurasına üzv dövlətlərdə mediasiyanın daha yaxşı həyata keçirilməsinin təşviqi çərçivəsində vəkillər üçün mediasiya üzrə təlimatın hazırlanmasına kömək etsin. Məqsəd 2018-ci ilin iyun ayında CEPEJ-in plenar iclasında təsdiq edilmək üçün CCBE/CEPEJ-in yekun birgə sənədini təqdim etmək idi. Bu məqsədlə hazırkı Təlimat CCBE tərəfindən CEPEJ-GT-MED ilə məsləhətləşmələr əsasında hazırlanmışdır.*

*Bu tərcümə Avropa İttifaqı və Avropa Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə yalnız Avropa Şurası məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir.*

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

# Mündəricat

**VƏKİLLƏR ÜÇÜN MEDİASİYA ÜZRƏ TƏLİMAT ........ 1**

1-CI FƏSIL – GIRIŞ ........ 3

*1. Məqsəd və mövzu ........ 3*

*2. Mediasiya məhkəmə prosesinin alternativi kimi ........ 3*

*3. Mediasiya ədalət mühakiməsinə çıxış vasitəsi kimi ........ 4*

2-CI FƏSIL – MEDİASİYADA VƏKİLİN ROLU ........ 5

*1. Vəkil tərəfindən dəstəklənən mediasiya ........ 5*

*2. Mediator konkret olaraq nə edir? ........ 6*

*3. Mediasiyanın əsas xüsusiyyətləri ........ 6*

*4. Mediasiyada vəkillərin rolu ........ 7*

*5. Mediatorun seçilməsi və təyin edilməsi ........ 13*

*6. Mediatoru necə tapmalı ........ 14*

*7. Mediator kimi fəaliyyət göstərən vəkillər ........ 15*

3-CÜ FƏSIL – MEDİASİYA ÜÇÜN ƏLVERİŞLİ MÜHİTİN YARADILMASINA KÖMƏK ETMƏKDƏ VƏKİL BİRLİKLƏRİNİN VƏ HÜQUQŞÜNAS CƏMİYYƏTLƏRİNİN ROLU ........ 16

## *1-ci fəsil – Giriş*

### *1. Məqsəd və mövzu*

Bu Təlimatın əsas məqsədi vəkillər arasında mediasiya ilə bağlı məlumatlılıq səviyyəsini artırmaq və vəkillər üçün mediasiyadan istifadədən irəli gələn müxtəlif professional problemləri, imkanları və stimulları, habelə müştərilər üçün faydaları nümayiş etdirməkdir. Bu Təlimat "CEPEJ-in mediasiyaya dair rəhbər prinsipləri"nə (3. Məlumatlılıq) uyğun olaraq hazırlanmışdır.

Təcrübəli vəkillərin mübahisələrin idarə edilməsi metodlarına cəlb edilməsinin və onların mediasiya kimi mübahisələrin alternativ həlli proseslərində fəal iştirakının vacibliyi geniş şəkildə qəbul edilir və müxtəlif davranış kodekslərində lazımi şəkildə öz əksini tapır.

Bu Təlimatda "*mediasiya*" termini mübahisələrin könüllü, məcburiyyətə əsaslanmayan, konfidensial həlli prosesini bildirir ki, burada neytral və müstəqil şəxs(lər) tərəflərə öz çətinliklərini həll etməkdə və razılığa gəlməkdə kömək etmək üçün tərəflər arasında ünsiyyətin asanlaşdırılmasına yardım göstərir. Mediasiyadan mülki, ailə, inzibati və cinayət işlərində istifadə edilir. Bundan əlavə, "*mediator*" termini tərəflərə mübahisənin həllində qarşılıqlı məqbul razılığa gəlməyə kömək etmək üçün məhkəmə və ya hər hansı digər orqan tərəfindən təyinatı irəli sürülən və/və ya mübahisə tərəfləri tərəfindən birgə təyin edilən şəxsi bildirir.

Baxmayaraq ki bu Təlimatda müştəriləri mediasiyada təmsil edən vəkillər və mediator qismində çıxış edən vəkillər üçün bəzi praktik təkliflər, materiallar və ya alətlər təqdim edilir, o, mediasiya üzrə mövcud olan çoxlu təlim materialını, eləcə də təlim kurslarını əvəz etmək üçün nəzərdə tutulmayıb. Əksinə, bu Təlimatın məqsədi mediasiyanın vəkillər və onların müştəriləri üçün nəyə görə vacib və faydalı proses ola biləcəyini və vəkillərin gündəlik təcrübəsində baş verən müəyyən problemlərin, məsələn, müştərinin marağının müəyyən edilməsi və başa düşülməsi ilə bağlı problemlərin aradan qaldırılması üçün mediasiyanın necə istifadə oluna biləcəyini nümayiş etdirməkdir.

Vəkillərin müştərinin maraqlarına uyğun hərəkət etmək öhdəliyini nəzərə alaraq, bu Təlimatda belə bir düşüncə rəhbər tutulur ki, vəkillər öz müştərilərinə mübahisələrin həlli prosesinin ən uyğun variantını seçməklə bağlı məsləhət verərkən həmişə bütün variantları nəzərdən keçirməlidirlər. Buna görə də vəkillərin mediasiyaya və mübahisələrin həlli üzrə hər hansı digər prosesə yanaşması konseptual baxımdan neytral olmalı və üstünlük verilən variantın seçilməsi real imkanlara əsaslanmalı, analitik və obyektiv baxımdan nəzərdən keçirilməlidir.

Bu baxımdan və mediasiyanın daha yaxşı mənimsənilməsi və həyata keçirilməsinin təşviqi kontekstində vurğulanmalıdır ki, vəkillərin mediasiya üzrə maarifləndirilməsi və təlimi zəruridir.

### *2. Mediasiya məhkəmə prosesinin alternativi kimi*

Mediasiya mübahisələrin həlli üçün çox praktik və çevik üsuldur. Bəzi hallarda bu, məhkəmə proseslərindən daha sürətli, daha effektiv və daha ucuz ola bilər.

Xüsusi xarakterinə və əməkdaşlığa əsaslandığına görə, mediasiya üsulları hətta mübahisənin həllində məhkəmə prosesi vasitəsilə mümkün olmayan əhəmiyyətli həllə nail olmağa imkan yarada bilər. Tərəflər üçün yad və kənar olan və adətən hər hansı məhkəmə prosesində mövcud prosessual məhdudiyyətlər çərçivəsində fəaliyyət göstərən məhkəmə kimi üçüncü bir tərəf daha yaradıcı və ya mürəkkəb həll yolları üzərində işləmək iqtidarında olmaya bilər. Bu məhdudiyyətlər tərəflərin məhkəmə prosesində rəqib kimi çıxış etməsi ilə daha da mürəkkəbləşir, buna görə də onların ünsiyyəti daha çox taktiki xarakter daşıyır, əməkdaşlıq imkanları isə daha da çətinləşir və əngəllənir. Bu, heç bir halda məhkəmələrin və ya məhkəmə sisteminin tənqidi kimi qəbul edilməməlidir, lakin bunlar qəbul edilmiş proses və prosedurun mümkün nəticələridir.

Mahiyyət etibarı ilə məhkəmələrin və ya arbitrlərin rolu hakimlik etməkdir; yəni "*kimin haqlı, kimin haqsız olduğuna*" qərar verməsi gözlənilir. Mənəvi və ya hüquqi baxımdan bu cür yanaşma

mühüm məna kəsb edir və çox vaxt zəruri ola bilər, lakin əlbəttə ki, bu, mümkün olan yeganə üsul deyil.

Nəhayət, məhkəmə proseslərinin başqa bir məhdudiyyətini də qeyd etmək yerinə düşər, belə ki, onlar heç də həmişə tərəflərin ehtiyaclarını və maraqlarını nəzərə almır. Bəzən məhkəmə iddiaları əslində mübahisənin məğzini təşkil etmir və tərəflər bu cür çıxılmaz vəziyyətdən çıxa bilmirlər. Bundan əlavə, "*kimin haqlı, kimin haqsız olması*" sualı lüzumsuz və ya cavabsız ola bilər; bəzən mübahisəni həll etmək üçün hətta bu sualı cavablandırmaq lazım deyil və ya belə bir cavabın axtarışı tərəflərin münasibətləri üçün dağıdıcı xarakter daşıya bilər.

Mediasiya tərəflərin özünün qərar verməsi prosesidir, burada tərəflər müqavilə paradiqmasından doğan sərbəstlik çərçivəsində və tam muxtariyyət əsasında hərəkət edirlər ki, bu da mürəkkəb idarəetmə problemlərinin həlli üçün daha əlverişli ola bilər. Həm də mediasiyada mediator yalnız prosesin aparılmasına nəzarət edir. Tərəflər nəticə üzərində nəzarəti öz əllərində saxlayırlar və təbii ki, onların məhkəmə prosesində olan imkanlardan daha çox seçim və manevr imkanları olur. Bu, konsensus əsasında qərar qəbul etmə prosesinin səciyyəvi xüsusiyyətidir, elə bir proses ki, daha çox müştərək fəaliyyətə əsaslanır və bir çox konseptual və ya prosessual məhdudiyyətlərdən azaddır.

### *3. Mediasiya ədalət mühakiməsinə çıxış vasitəsi kimi*

Bir sıra sənədlərdə Avropa Şurası və Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) mediasiyadan istifadəni təşviq edən tədbirlərin ədalət mühakiməsinə çıxışı asanlaşdıra biləcəyini qəbul etmişdir.

CCBE yarandığı gündən Avropa hüquqşünaslarının baxışlarının təşviqinin ön cərgəsində gedən və demokratiya və qanunun aliliyinin əsaslandığı hüquqi prinsipləri müdafiə edən beynəlxalq qeyri-kommersiya birliyidir. Bu dəyərləri və prinsipləri bütün hüquqşünaslar bölüşməlidir. Həmin dəyərlər və prinsiplər həmçinin ədalət mühakiməsinə çıxış hüququnu, eləcə də peşənin əsas dəyərlərini təbliğ etməklə müştərilərin müdafiəsini özündə ehtiva edir.

Ədalət hər bir vətəndaşın həyatında son dərəcə vacib olan fundamental dəyərdir. Hər bir insanın ədalət mühakiməsinə çıxışı olmalıdır, amma ədalətin mənbəyi heç də həmişə məhkəmələr olmur. Buna görə də, vəkillər mediasiya da daxil olmaqla mövcud olan geniş çeşidli bütün mübahisələrin həlli prosesləri haqqında qabaqcıl düşüncə tərzi və dərin bilik nümayiş etdirməlidirlər. Mediasiya, şübhəsiz ki, ədalət mühakiməsinin həyata keçirilməsinin mümkün üsullarından biridir və buna görə də müştərilər mediasiyanın təklif etdiyi imkanlar barədə məlumatlandırılmalıdırlar ki, bu da təbii ki, tərəflərin özlərinin könüllü qərar qəbul etməsi prosesidir və bu prosesdə onlara məlumat verilə bilər ki, mübahisənin həlli vasitəsi kimi mediasiyanın seçilməsi maraqlarını müdafiə etmələrinə ən yaxşı şəkildə xidmət edə bilər.

Ədalət mühakiməsinin həyata keçirilməsi prosesində müstəqil ümumi məhkəmələrin fundamental rolu yüksək qiymətləndirilir, lakin eyni zamanda institusional ədalət mühakiməsinə çıxış imkanı məhdud və bəzi hallarda hətta qüsurlu ola bilər. Bundan əlavə, heç bir ədalət mühakiməsi sistemi mükəmməl ola bilməz. Ədalət mühakiməsi sisteminin fəaliyyətinin təkmilləşdirilməsi üzərində daim düşünülməli və o, təkmilləşdirməyə məruz qalmalıdır, lakin onun çatışmazlıqları və məhdudiyyətləri mütləq şəkildə mövcud olur ki, bu da bəzən məyusluğa və ya zərərə səbəb olur.

Mediasiya yuxarıdakı vəziyyətin həlli yollarından biri kimi nəzərdən keçirilə bilər. Mediasiya və mübahisələrin həllinin digər alternativ prosesləri ədalət mühakiməsi sisteminin digər bir dayağı kimi qəbul edilə bilər, elə bir dayaq ki, ədalət mühakiməsi sistemini dəstəkləyə və ədalət mühakiməsinə ümumi çıxış imkanların\ı yaxşılaşdıra bilər. Bu həm də adekvatlıq və effektivlik məsələsidir – məhkəmə sistemi həqiqətən də məhkəmə araşdırması tələb edən məsələlərlə məşğul olmalıdır, amma elə vəziyyətlər var ki, bu zaman mübahisələrin həllinin digər üsulları daha məqsədəuyğun ola bilər.

Lakin ədalət mühakiməsi sistemlərinin fəaliyyətindəki çatışmazlıqlar və ya ədalət mühakiməsinə çıxış üçün tipik (maliyyə və ya institusional) maneələr mediasiyanın mübahisələrin həllinin cəlbedici prosesi kimi qiymətləndirilməsinin yeganə səbəbi deyil. İşin xarakterinə və ya müştərilərin konkret maraqlarına görə formal/institusional ədalət mühakiməsinə çıxış imkanı mövcud olmadıqda və ya qeyri-adekvat olduqda, mediasiya və mübahisələrin həllinin digər alternativ prosesləri uyğun alternativ variantlar ola bilər. Müştərilərin müəyyən maraqları tamamilə haqlı və qanuni olsa da, elə hallar olur ki, onların məhkəmə sistemi çərçivəsində effektiv şəkildə təmin edilməsi mümkün olmur. Məsələn, hüququn konseptual məhdudiyyətləri, qanuni tələblərin formal müddətinin başa çatması və ya əlçatan olmaması, müvafiq presedent hüququnun və ya məhkəmə təcrübəsinin mövcud olmaması, formal və ya qəbul edilə bilən sübutların olmaması və ya müxtəlif prosessual çətinliklər bunun səbəbi ola bilər. Təsəvvür etmək olar ki, yuxarıda göstərilən məhdudiyyətlər mediasiya və mübahisələrin digər alternativ həlli proseslərində “*kimin haqlı, kimin haqsız*" olması sualı əhəmiyyət daşımaya və onun hüquqi əsasa malik cavabını tapmağa ehtiyac olmaya bilər.

## *2-ci fəsil – Mediasiyada vəkilin rolu*

Vəkillər, şübhəsiz ki, mübahisənin idarə edilməsi proseslərində mühüm rol oynayır və oynamalıdırlar və bununla da mübahisə vəziyyətlərinin müştərilər üçün əslində necə həll olunacağına böyük təsir göstərə bilərlər. Buna görə də, vəkillərin həm məhkəmə proseslərində, həm də mübahisələrin barışıq yolu ilə həlli prosedurlarının bütün növlərində, o cümlədən mediasiyada müştərilərə effektiv dəstək üçün lazım olan dərin məlumatlılıq və müvafiq texniki bacarıqlar nümayiş etdirə bilməsi çox vacibdir. Vəkillik peşəsi heç bir vəchlə və heç bir səbəbdən (məsələn, mediasiya ilə bağlı yetərincə lazımi anlayış və ya biliklərin olmaması və ya praktik bacarıqlarda çatışmazlıqların olması səbəbindən) mediasiya üçün maneə kimi başa düşülməməli və ya qəbul edilməməlidir, çünki bu, potensial olaraq vəkillərin nüfuzuna mənfi təsir göstərə bilər. Yuxarıda göstərilən səbəblərə görə, mediasiya üzrə nəzəri və praktik təlimlər hüquq fakültələrinin proqramlarına və vəkil birlikləri və hüquqşünas cəmiyyətləri tərəfindən təqdim edilən davamlı təhsil kurslarına daxil edilməlidir.

### *1. Vəkil tərəfindən dəstəklənən mediasiya*

Vəkil tərəfindən dəstəklənən mediasiyada bir və ya bir neçə tərəfə mediasiya sessiyalarına hazırlaşmaqda köməklik göstərilir və/yaxud mediasiya prosesində öz vəkilləri onları müşayiət edir və onlara məlumat və məsləhətlər verirlər. Mediasiya prosesini bu cür effektiv edən cəhətlərdən biri onun mübahisədəki tərəflərin bir-biri ilə birbaşa danışması və digəri (digərləri) tərəfindən dinlənilməsi üçün təqdim etdiyi imkandır. Vəkil tərəfindən dəstəklənən mediasiya olduqca faydalı ola bilər, çünki o, hər iki tərəfin keyfiyyətli müstəqil hüquqi məsləhət almaq imkanına malik olmasını, məlumatlı şəkildə dialoqa girməsini təmin edir və tərəflər arasında hər hansı güc balanssızlığını aradan qaldırmağa kömək edir. Xüsusilə, vəkillər mediasiya prosesini asanlaşdıra və yaxşı nəticə əldə edilməsində mediatora dəstək ola bilərlər.

Nəzərə almaq lazımdır ki, mediasiya məhkəmə prosesindən tamamilə fərqli bir paradiqmaya əsaslanır – burada tarixi faktlar, səbəblər, tərəflərin hüquqları və arqumentləri tamamilə bir kənara qoyulmasa da, daha az əhəmiyyət kəsb edir, çünki mediasiyada onlar məhkəmə qaydasında və ya hər hansı digər formada müəyyən olunmur və adətən faktiki olaraq bir-birinə zidd olur. Bu paradiqmanın düzgün başa düşülməsi vəkillərin mediasiyada konstruktiv iştirakı və bu prosesdə müştərilərinə effektiv dəstək olması üçün mütləq şəkildə vacibdir. Mediasiyada əsas diqqət tərəflərin gələcək ehtiyaclarına və maraqlarına yönəldilir. Tərəflər həm də interaktiv və əməkdaşlıq rejimində işləyirlər ki, bunun da sayəsində bir-birini anlamaq və münaqişəni bütün mürəkkəbliyi ilə dərk etmək üçün yaxşı şans əldə edirlər. Bu zəmində onlar hər iki tərəf üçün məqbul ola biləcək və onların qarşılıqlı ehtiyac və maraqlarını nəzərə ala biləcək həll yolu üzərində birgə işləyirlər. Bu, müstəqil və neytral mediator tərəfindən idarə olunan və dəstəklənən strukturlaşdırılmış, lakin qeyri-rəsmi proses çərçivəsində baş verir.

Yuxarıda qeyd olunan səbəblərə görə, mediasiyada müştərilərin iştirakını dəstəkləyən vəkillərin funksiya və vəzifələri məhkəmə proseslərində müştərinin vəkili kimi qarşı tərəfə münasibətdə çəkişmə xarakterli fəaliyyət göstərməkdən fərqlidir. Mediasiyada qarşı tərəflə daha çox

əməkdaşlığa əsaslanan və konstruktiv yanaşma tətbiq edən vəkillər mediatorlara nizamlama prosesindəki tərəfləri effektiv şəkildə istiqamətləndirməkdə kömək edə və beləliklə, müştərilərinin mübahisələrinin onların real maraqlarını və ehtiyaclarını daha yaxşı əks etdirən həllinə nail olmasını təmin edə bilərlər.

Mediasiyaya baxışın və ya onu başa düşməyin bir çox yolu vardır, amma onlardan biri mediasiyaya müştərinin marağını daha yaxşı müəyyən etməyə və şərh etməyə imkan verən effektiv prosedur kimi baxmaqdır. O halda vəkilin nöqteyi-nəzərindən mediasiya çox faydalı vasitə ola bilər. Nəticə etibarı ilə vəkillər etik və peşə qaydaları baxımından müştərinin mənafelərini qorumaq və həyata keçirmək öhdəliyi daşıyırlar ki, bu maraqlar da vəkilin nöqteyi-nəzərindən bir çox işlərdə aydın olmaya bilər və ya onların müəyyən edilməsi çətin ola bilər. Başqa sözlə, adətən mediasiya müştərinin maraqlarının müəyyən edilməsi və şərh edilməsi prosesində baş verən müxtəlif metodoloji, konseptual, kommunikasiya və ya əlaqəlilik problemlərinin həllində çıxış yolu ola bilər. Şübhəsiz ki, mediasiyada müştərinin marağı bütün iştirakçılar üçün daha aydın və başa düşülən olur və ən əsası, müştəri tərəfindən daha əsaslı və real şəkildə müəyyən edilir.

Vurğulamaq lazımdır ki, uğurlu mediasiya adətən barışıq sazişi ilə, yəni konsensusa əsaslanan razılaşma ilə başa çatır. Belə bir yekun nəticə hər iki tərəf tərəfindən qəbul edilməlidir və adətən onlar tərəfindən könüllü olaraq həyata keçirilir və çox nadir hallarda sual altına alınır. Belə olan halda, məhkəmə çəkişmələrindən fərqli olaraq, mediasiya həqiqətən də münaqişəyə son qoyur – belə bir vəziyyətin çox vaxt müştərilər tərəfindən arzulandığını inkar etmək çətindir. Şübhəsiz ki, ikitərəfli qaydada qəbul edilmiş razılaşma çox zaman böyük dəyərə malikdir. Bundan əlavə, mediator qarşısında tərtib edilmiş yazılı barışıq sazişi məcburi qüvvəyə malik olan və icra edilməli olan müqavilədir və hətta bəzi yurisdiksiyalarda müəyyən formal tələblərin yerinə yetirilməsi şərti ilə məhkəmənin qərarına ekvivalent olan hüquqi qüvvəyə malik icra sənədidir.

### 2. Mediator konkret olaraq nə edir?

Mediator mediasiya nəzəriyyəsi və praktikası sahəsində peşəkar mütəxəssisdir, mediasiyanın əsas elementi isə danışıqlardır. O, mübahisə tərəflərinə peşəkar xidmətlər təklif edir. Mediator danışıqları irəliyə doğru hərəkət etdirən şəxsdir. Danışıqlar mühərriki sıradan çıxdıqda və ya dayandıqda, mediator öz vasitəçilik təcrübəsi və alətlər dəsti ilə onu yenidən işə salır və həm də optimal şəkildə işləməyə məcbur edir (bu, mediasiya üçün xarakterik haldır). İstənilən mediasiya prosesi optimal həll yolu tapmaq səylərini özündə daşıyır.

Mediator öz peşəkar xidmətlərini ödəniş qarşılığında təqdim edən xidmət təminatçısıdır[1]. Mediator ilə tərəflər arasındakı mediasiya müqaviləsində bu xidmətlərin göstərilməsi haqqında razılaşmanı özündə əks etdirən müddəalar yer alır. Tərəflərə göstərilən bu xidmətlərin yerinə yetirilməsi zamanı mediator eyni vaxtda üç işi yerinə yetirir: mübahisənin həlli ilə bağlı söhbəti strukturlaşdırır; tərəflərin bir-birini dinləmələrini və başa düşmələrini təmin etmək üçün onların ünsiyyətini asanlaşdırır; danışıqlarda çıxılmaz vəziyyət yaranmasından qaçmağa kömək edir və lazım gəldikdə çıxılmaz vəziyyətdən çıxmaq üçün düzgün üsulları tətbiq edir.

Bu üsullardan biri ondan ibarətdir ki, mediator tərəflərlə ayrı-ayrılıqda əlaqə saxlayaraq danışıqlarda konstruktiv irəliləyişə mane olan məsələləri müvafiq tərəflə konfidensial şəkildə araşdıra və həmin tərəflə birlikdə çıxılmaz vəziyyətdən çıxış yolu tapa bilər. Bu söhbətin məzmunu konfidensial saxlanılır və bu konfidensiallıq digər tərəflərə də aiddir.

### 3. Mediasiyanın əsas xüsusiyyətləri

Məlumdur ki, mediasiya könüllü prosesdir; yəni müştərinin açıq şəkildə ifadə olunmuş razılığı olmadan işə salınmır və müştəri istənilən vaxt və mübahisənin həlli üçün tələb olunan istənilən digər proses üçün mənfi nəticələr olmadan mediasiyadan imtina edə bilər. Əlbəttə, bəzən elə hallar olur ki, məhkəmə prosesinin başlanması və ya davam etdirilməsi üçün əsaslı səbəblər ola bilər,

[1] Bu ödəniş tərəflərdən, hüquqi yardım göstərən qurumdan və ya digər maliyyə təşkilatlarından alına bilər və yaxud mediator ödənişsiz əsasda fəaliyyət göstərə bilər.

məsələn, hüquqi müdafiə vasitəsi qismində qabaqlayıcı məhkəmə tədbiri tələb oluna bilər. Bundan əlavə, mediasiyanın könüllü xarakteri mübahisələrin istər formal, istərsə də praktik səbəblərə görə yalnız birtərəfli yönləndirilə bilən bir çox digər həlli üsullarından fərqli olaraq müştəri üçün bütün digər variantların açıq saxlanması deməkdir.

Sadə dillə desək, müştəri nəinki mediasiya prosesinə daxil ola və onu tərk edə bilər, həm də mediasiya prosesini tərk etdikdən sonra əvvəlki sayda seçim variantlarını özündə saxlayır. O zaman mediasiya digər seçimlərə münasibətdə "ədalətli" variant kimi xarakterizə edilə bilən bir seçimdir – o, adətən müştərinin digər mübahisə strategiyalarına, üsullarına və ya prosedurlarına, yəni məhkəmə proseslərinə qayıdış imkanını qapatmır, məhdudlaşdırmır və ya çətinləşdirmir. Ümumiyyətlə, mediasiya müştərinin manevr imkanlarına mənfi təsir göstərmir və onu heç bir iddia tələbindən və ya hüquqdan məhrum etmir. Və əksinə, çox zaman mediasiya indiyədək bağlı qalan və ya hətta müştəri tərəfindən reallaşdırılmayan yeni variantlara qapılar açır.

Çox vaxt belə bir yanlış fikir yaranır ki, mediasiya sadəcə asan, dostyana, amma səmərəsiz bir prosesdir. Düzdür, mediasiya öz mahiyyətinə görə qarşıdurma deyil, amma eyni zamanda intellektual səylər tələb edir, çünki o, şəxsin sadəcə olaraq öz hekayəsini və fərziyyəsini yaratmasından və sonra onları təsdiqləyən arqumentlər axtarıb tapmasından daha artıq bir şeydir.

Mediasiya kimin haqlı və ya haqsız olduğunu əminliklə müəyyənləşdirmək deyil, çünki mübahisələri bu yolla effektiv şəkildə həll etmək mümkün deyildir. Adətən tərəflərdən heç birinin digər tərəfin iradəsini və ya baxışlarını dəyişdirmək üçün kifayət qədər inandırıcı arqumentləri və ya imkanı olmur. Reallıqda tərəflərdən birinin digərinin fikri ilə tamamilə ziddiyyət təşkil edən nöqteyi-nəzərinin düzgünlüyünə əmin olmaq çox vaxt problemin əsas hissəsini təşkil edir və bu səbəbdən bu özü-özlüyündə mediasiyadan imtina etmək üçün mütləq əsas təşkil etmir, çünki tərəflər öz fikirlərində, faktiki mövqelərində tamamilə yanıla bilərlər və bu, mediasiya yolu ilə aşkar edilə bilən məsələdir.

Mediasiya həqiqi problemlərin müəyyən edilməsi və onların həlli üçün açarların tapılmasıdır. Bu vəzifə müəyyən düşünmə tərzindən (adətən faydasız və ya dağıdıcı olan) imtina etməyi və bütövlükdə mübahisə vəziyyətini hər iki tərəfin xeyrinə olan yaradıcı şəkildə yenidən şərh etməyi nəzərdə tutur. Belə olan halda, söyləmək olar ki, mediasya anlama ilə və kreativliklə bağlıdır. Bu yanaşma əksər insanlar tərəfindən lazımi idarəetmənin tərkib hissəsi hesab olunur və adətən öz bəhrəsini verir.

Yuxarıda qeyd edilənlərdən belə nəticə çıxır ki, mediasiya istənilən mübahisə vəziyyətinin həlli üçün mövcud olan çoxsaylı məqbul variantlardan biri kimi nəzərdən keçirilməlidir. Bununla belə, əgər müştəri sərbəst seçim hüququnu həyata keçirməlidirsə, ona bütün belə variantlar arasında seçim etmək imkanı verilməlidir. Bundan sonra müştəri mediasiya, onun faydaları haqqında bilməli və bu prosesi həqiqətən dərk etməlidir. Bunun üçün müştəri prosesin bütün mövcud variantları barədə, o cümlədən mediasiya haqqında lazımi qaydada və obyektiv məlumatlandırılmalıdır. Yalnız bundan sonra müştərilər həqiqətən məlumatlı şəkildə öz maraqlarına uyğun qərar qəbul edə biləcəklər. Şübhəsiz ki, müştərini mediasiya ilə bağlı tam və dəqiq məlumatla təmin etmək və onun məlumatlı şəkildə qərar qəbul etməsinə kömək etmək vəkilin peşə borcudur.

## 4. Mediasiyada vəkillərin rolu

### a. Mübahisənin həlli metodunun seçilməsi işin təhlilinin ayrılmaz hissəsi kimi

Müştəri üçün işi təhlil edərkən və ya mübahisəni nəzərdən keçirərkən vəkillər hər hansı qərəzlilik, tərəfkeşlik və ya vaxtından əvvəl mühakimə yürütmə əsasında hərəkət etməkdənsə, həmişə real imkanlara əsaslanan yanaşma tətbiq etməlidirlər. Xüsusilə mübahisəli vəziyyətin həlli üçün mövcud proseslərin seçiminə gəldikdə, vəkillərin məsələyə analitik və obyektiv nöqteyi-nəzərdən yanaşmaları vacibdir. Belə peşəkar münasibət istənilən işin təhlilində başlanğıc nöqtəsi olmalıdır. Bu, əlbəttə ki, müştərilərin xüsusiyyətlərini, onların xüsusi ehtiyaclarını və seçimlərini, eləcə də qarşı tərəfin münasibətini və hərəkətlərini nəzərə almağı özündə ehtiva edir.

Müştəriyə düzgün seçim etmək imkanı vermək üçün praktik fəaliyyətlə məşğul olan vəkillər mübahisələrin həlli ilə bağlı bütün mövcud proseslər, onların xüsusiyyətləri və tövsiyə olunan institutlar və xidmət təminatçıları haqqında yetərincə məlumatlı olmalıdırlar ki, müştəriyə bu cür üsulları effektiv şəkildə təklif edə və sonra seçilmiş prosesdə müştərini peşəkarlıqla dəstəkləyə bilsinlər.

Qeyd etmək lazımdır ki, yuxarıda qeyd olunan metodologiyaya riayət edilməməsi, yəqin ki, müştərinin sadəcə mübahisələrin həllinin qeyri-adekvat prosesini seçməsinə deyil, həm də daha uzağa gedən mənfi nəticələrə səbəb ola bilər. Mübahisələrin həlli prosesinin seçilməsi həm də müştərinin mövqeyinə əhəmiyyətli dərəcədə təsir göstərə bilməsi baxımından çox vacibdir, belə ki, bu, potensial son nəticələrin sayını əvvəlcədən müəyyənləşdirə və ya azalda bilər ki, bununla da adətən müştəri üçün mövcud olan seçim variantları diapazonu lüzumsuz olaraq daralmış olar. Bu səbəbdən vəkillər mübahisələrin həlli üzrə müxtəlif proseslərin istifadəsinin müxtəlif müsbət və mənfi cəhətləri barədə müştəri ilə müzakirəni diqqətindən qaçırmamalı və ya buna laqeyd yanaşmamalıdırlar. Bu, potensial olaraq vəkilin səhlənkarlığı və yaxud hətta professional pozuntu kimi qiymətləndirilə bilən metodoloji xətadır.

Buna görə də, müştərinin mübahisənin həlli üçün ən uyğun prosesi seçməsinə vəkil həmişə dəstək göstərməli, bu mühüm məsələ ilə bağlı ona diqqətlə məsləhət verməlidir, çünki bu, işlə bağlı hərtərəfli və lazımi qaydada aparılan istənilən təhlilin tərkib hissəsidir. Həmişə nəzərə alınmalıdır ki, müştərinin marağı müştəri üçün eyni dərəcədə vacib olan həm maddi, həm də prosessual aspektləri əhatə edir və nəticədə onların hər ikisi vəkil tərəfindən lazımi qaydada nəzərə alınmalıdır. Buradan belə nəticə çıxır ki, hüquqi təhlil aparan şəxslər həmişə mübahisə vəziyyətinin həlli üçün bütün mümkün variantları nəzərdən keçirməli və iş üzrə mövqeyi bu kontekstdə qiymətləndirməlidirlər.

Onu da qeyd etmək lazımdır ki, mübahisələrin həlli üçün uyğun metodların seçilməsi daha erkən mərhələdə, hələ mübahisə baş verməzdən əvvəl, yəni vəkillə müqavilə bağlama mərhələsində müəyyən amillərin təsirinə məruz qala bilər. Buna görə də, vəkil hər dəfə müqavilə tərtib edərkən həmişə düşünməlidir ki, mediasiya müqavilə bağlayan tərəflərə yardımçı ola bilərmi və ya müəyyən hallarda, məsələn, müqavilə münasibətlərinin xarakterinə və ya növünə görə xüsusi əhəmiyyət kəsb edə bilərmi? Əgər belədirsə, nəzərə almaq lazımdır ki, müqaviləyə mediasiya barədə maddə daxil edilə bilər. Bu, əslində mediasiya anlayışı ilə tanışlıq yaratmaq üçün ən uyğun məqamdır, yəni müqavilə bağlayan tərəflərin birlikdə yaxşı perspektivləri olduqda və hələ də bir-birlərinə tərəfdaş kimi baxdıqda bunu etmək məqsədəuyğundur.

### *b. Müştəriyə mübahisənin düzgün həlli metodu ilə bağlı məsləhət verilməsi*

Mübahisənin həlli prosesinin seçimində müştəriyə məsləhət verə bilmək üçün vəkil sözügedən məsələ ilə kifayət qədər tanış olmalı və mövcud proses variantlarının zərər və faydalarını hərtərəfli təhlil etməlidir. Bu addım heç vaxt yaddan çıxarılmamalı və ya diqqətdən kənarda qalmamalı və vəkillər həmişə müştərilərinə bu professional vəzifənin həqiqətən lazımi qaydada yerinə yetirildiyini nümayiş etdirə bilməlidirlər. Xüsusilə məhkəmə və arbitraj prosesində iştirak etməzdən əvvəl müştərinin bu prosesin nə qədər davam edə biləcəyini, hansı qiymətə başa gələ biləcəyini, hansı risklərin ola biləcəyini və arzu edilən nəticəyə nail olmaq ehtimalını, o cümlədən icra mərhələsi ilə bağlı mümkün riskləri başa düşməsi vacibdir.

Buna görə də vəkil işlə bağlı risklərin qiymətləndirilməsini həyata keçirməli, ən yaxşı və ən pis senariləri və realist hədəf səviyyəsini göstərməlidir ki, müştəri mövcud proses variantlarını qiymətləndirə bilsin. Bu cür risk qiymətləndirilməsinə işin gedişində (məsələn, seçilmiş proses zamanı iş üzrə əlavə məlumat və sübutlar toplandıqda) yenidən baxılmalı və qiymətləndirmə yenilənməlidir. İşlə bağlı qabaqcadan araşdırma aparmaq və işin yazılı qiymətləndirilməsini həyata keçirmək müştərinin mövcud variantları daha yaxşı qiymətləndirməsinə və real gözləntiləri təyin etməsinə kömək edir.

Əgər təcililik kimi ciddi səbəblər başqa cür tələb etmirsə, müştəri yalnız mübahisələrin həllinin mümkün olan bütün digər alternativ proseslərini, o cümlədən mediasiya variantını araşdırdıqdan

sonra məhkəmə və ya arbitraj prosesinə başlamalıdır. Aşağıdakı hallardan hər hansı biri mövcud olduqda mediasiya xüsusilə məqsədəuyğun proses ola bilər:

- müştəri mediasiyaya üstünlük verdiyini bildirir;
- müştəri məhkəmə çəkişmələrindən və arbitrajdan yayınmaq arzusunu ifadə edir;
- müştəri müqaviləyə əsasən məhkəməyə və ya arbitraja müraciət etməzdən əvvəl mediasiyaya müraciət etməyə borcludur;
- müştərinin maddi durumu məhkəməyə müraciət etməsinə imkan vermir;
- tətbiq edilə bilən hüquq/yurisdiksiya məsələləri meydana çıxır ki, bunun da nəticəsində mediasiya daha məqsədəuyğun sayılır;
- mübahisəli məsələlərin heç biri məhkəmə və ya arbitraj qərarı tələb edəcək qədər hüquqi cəhətdən mürəkkəb və ya yeni deyil;
- tərəflərin ümumi işgüzar və ya şəxsi maraqları (məsələn, davam edən biznes və ya ailə münasibətləri) var ki, mübahisə onları təhlükə altına ala bilər;
- mübahisənin tez həll edilməsi vacibdir, xüsusən də məhkəmə çəkişməsi müştəri və ya onun biznesi üçün digər mənfi (daxili və ya xarici) nəticələrə səbəb ola bilər;
- məhkəmə qərarı əsas problemləri adekvat şəkildə həll etməyəcək və yaxud mübahisənin kənar üçüncü tərəfin (məsələn, dövlətin və ya arbitraj məhkəməsinin) ixtiyarına buraxılması hər hansı digər səbəblərə görə məqsədəuyğun və ya arzuolunan olmayacaq;
- məhkəmədə iddia qaldırma mübahisənin yalnız bir hissəsini həll edə bilər;
- məhkəmə qərarının effektiv icra olunmaması riski var;
- məhkəmə prosesinin aparılması müştərinin digər həyati maraqları ilə ziddiyyət təşkil edir;
- mübahisənin predmeti əsasən idarəetmə xarakteri daşıyır;
- məhkəmə çəkişməsi ilə bağlı məsrəflər müdafiə edilməsi nəzərdə tutulan maraqlara mütənasib deyil;
- mübahisə məsələnin yanlış anlaşılması ilə, məsələn, məlumatların düzgün çatdırılmaması, şəxsi münaqişə və ya mədəni fərqliliklərlə bağlı ola bilər; yaxud
- müştəri üçün mübahisənin ciddi şəkildə konfidensial saxlanması vacibdir.

Mübahisələrin həlli ilə bağlı digər proseslərə ekspert qərarları, erkən neytral qiymətləndirmə, hüquqi araşdırma, məsələyə idarəetmə şuraları tərəfindən baxılması və s. daxildir. Qərarların qəbulunun bu cür metodlarından o halda istifadə edilir ki, mübahisə açıq-aydın texniki xarakter daşıyan və ya müqavilə ilə bağlı olan fikir ayrılıqlarından irəli gəlir.

Mübahisələrin məhkəmədənkənar həlli prosesində həll olunmayan hər hansı mübahisə sonda məhkəmə və ya arbitraj yolu ilə həll edilə bilər.

### *c. Müştəriyə mediasiya masası arxasında və/və ya ondan kənarda kömək etmək*

Vəkilin mediasiya prosesində iştirakının müxtəlif üsulları var:

1. vəkil müştərisini mediasiyaya hazırlaya və sonra müştərini mediasiya prosesinə tək getməyə buraxa bilər;

2. vəkil bütün mediasiya prosesində müştərisi ilə birlikdə iştirak edə bilər; bu, şübhəsiz ki, vəkilin nöqteyi-nəzərindən optimal vəziyyətdir, çünki bu halda o, müştərisinə prosesin bütün mühüm mərhələlərində, o cümlədən aşağıdakı mərhələlərdə yardım edə, o cümlədən aşağıdakılarla bağlı köməklik göstərə bilər:

   a) müştərinin prosesi tam başa düşməsinə köməklik göstərilməsi və suallarının cavablandırılması;
   b) prosesin seçilməsi və mübahisənin mediasiyaya verilməsi haqqında qərarın qəbulu;
   c) digər tərəfə mediasiya təklifinin verilməsi/onun bu cür təklifinin qəbul edilməsi;
   d) uyğun mediatorun müəyyən edilməsi, seçilməsi və təyin edilməsi;

e) mediasiya haqqında müqavilənin/mediasiyada iştirak qaydalarının (əgər varsa) razılaşdırılması;
f) mediatora məlumat verilməsi;
g) mediasiyadan əvvəl müştəri ilə mediator arasındakı görüşlərdə (əgər nəzərdə tutulubsa) iştirak etmək;
h) tələb oluna bilən ekspertlərin seçilməsi, təyin edilməsi və məlumatlandırılması;
i) müştəriyə mübahisə çərçivəsində yaranan hüquqi məsələlər, hüquqlar və öhdəliklər üzrə hüquqi məsləhətlərin/rəylərin verilməsi;
j) müştərinin mövqeyinin güclü və zəif tərəflərinin qiymətləndirilməsi;
k) digər tərəflərin mövqeyinin güclü və zəif tərəflərinin qiymətləndirilməsi;
l) hazırkı anadək müştərinin mübahisəyə çəkdiyi xərclərin (məhkəmə xərcləri daxil olmaqla) hesablanması;
m) mübahisə mediasiya yolu ilə həll edilməyəcəyi halda məsrəflərin (məhkəmə xərcləri daxil olmaqla) hesablanması;
n) pul məsələsinə aid işdə mediasiya/barışıq yolu ilə həll üçün danışıqlar strategiyasının hazırlanmasında müştəriyə kömək etmək;
o) mübahisənin mediasiya yolu ilə həll edilməsində müştəriyə ehtiyaclarının və maraqlarının müəyyən edilməsində köməklik göstərmək;
p) müştəri ilə birlikdə alternativ senarilərin yoxlanılmasını həyata keçirmək və ümumiyyətlə, məhkəmə çəkişmələrində və ya arbitrajda ağlabatan şəkildə əldə edilə bilən nəticələrə istinadən müştərinin gözləntilərini ümumən idarə etmək;
q) hər hansı birgə mediasiya iclaslarının və yaxud belə iclaslarda mövqeyi barədə bildirəcəklərinin qısa xülasəsini hazırlamaqda müştəriyə yardım etmək;
r) mediasiya iclaslarında müştəri tərəfini təmsil edən komandanın tərkibində kimlərin olacağına qərar verməkdə müştəriyə yardım etmək;
s) müştəriyə mümkün alternativ nizamlama və həll variantlarını müəyyən etməkdə və/və ya təklif etməkdə köməklik göstərmək;
t) bütün digər proseslərdə olduğu kimi mediasiyada da prosesə hazırlaşmamağın adətən sonradan mediasiyada uğursuzluğa düçar olmağa bərabər olduğunu bilərək, müştəriyə mediasiyaya hazırlaşmaqda kömək etmək;
u) mediasiya yolu ilə barışıq haqqında saziş tərtib edilərkən müştəriyə məsləhətlər vermək;
v) zərurət yarandıqda və ya mediator xahiş etdikdə mediatora kömək etmək.

3. müştəri mediasiyanın əvvəlində tək iştirak edir və onun vəkili yekun hissədə prosesə qatılır – bu halda o, yekun razılığın əldə edilməsi üçün müxtəlif variantlar arasından seçim edilməsi prosesinə kömək edir və yekun razılaşmanın (barışıq sazişi və ya digər həll variantı) hazırlanmasına yardım göstərir; yaxud

4. müştəri mediasiya prosesində şəxsən iştirak etmədikdə vəkil prosesdə müştərini təmsil edir.

Mediasiya prosesində adətən müştərinin iştirakı tələb olunur və ya ən azı mediatorlar tərəfindən tövsiyə olunur. Mediator təkid edəcək ki, mediasiya prosesində tərəf olan hər bir şəxs, istər fiziki, istərsə də hüquqi şəxs olsun, mübahisəni həll etmək və həmin tərəfin adından məcburi qüvvəyə malik barışıq sazişi bağlamaq üçün tam səlahiyyətli bir şəxs tərəfindən təmsil olunsun. Tərəfin nümayəndəsinin həmin tərəfin adından barışıq sazişi bağlamaq səlahiyyətində məhdudiyyətlər mövcud olduqda, mediator bu cür məhdudiyyətləri müəyyən etməyə və bütün digər tərəfləri bu məhdudiyyətlərin mövcudluğu və hüdudları barədə məlumatlandırmağa borcludur. Tərəflərin özlərinin iştirakı (məsələn, korporativ tərəfin baş direktoru və ya digər səlahiyyətli nümayəndəsi) yeni həll yollarının axtarılmasını asanlaşdırır. Mediasiya prosesinin uğurlu olması üçün işin həllinə aid qərarların qəbulunda tam səlahiyyətə malik olmaq vacibdir.

**Nümunə 1.** Müştərinin problemi yalnız ünsiyyətdə olan xətalarla əlaqədardırsa və ya əsas problem hüquqi məsələlərlə deyil, emosiyalarla bağlıdırsa, mediasiya iclasında vəkilin iştirakı zəruri olmaya bilər. Bu halda vəkil müştərinin professional hüquqi dəstəyə ehtiyac olmadan qarşı tərəflə ünsiyyətdə olmasının mümkünlüyünü qəbul etməlidir, çünki iclasda heç bir hüquqi məsələyə baxılmayacaq. Mediator müştərinin hüquqlarına hörmət etməklə açıq müzakirə üçün əlverişli şəraiti təmin edə bilər. Bununla belə, vəkilin mediasiya müqaviləsini müştəri tərəfindən imzalanmazdan

əvvəl yoxlaması son dərəcə vacibdir (mübahisənin predmetindən asılı olaraq həmin müqavilənin müştəri tərəfindən imzalanması tələb oluna bilər).

Bu halda müştərilərin prosesə hazırlanması onlara mediasiya prosesində malik olduqları hüquq və vəzifələri barədə məlumat verməkdən ibarətdir. Mediatorlar tərəflərin prosesi və bu prosesdəki hüquq və vəzifələrini başa düşmələrini təmin etməlidirlər. Bu baxımdan vəkillər müştərilərinə aşağıdakı məlumatları təqdim edə bilərlər:

- mediasiyanın könüllü xarakteri,
- mediasiyanın əvvəlində imzalanmalı olan sənədlər (müvafiq ölkələrin qanunvericiliyindən asılı olaraq),
- konfidensiallıq,
- mediatorun qonorarı,
- mediasiya prosesinin müddəti,
- iddia müddətinin və müəyyən edilmiş digər vaxt məhdudiyyətlərinin nəticələri,
- mediasiya müqaviləsinin etibarlılığı və
- mediasiya nəticəsində əldə edilmiş sazişlərin tanınması və icrası (müxtəlif ölkələrin hüquq sistemindən və ya beynəlxalq məsələlərdə fərqliliklərdən asılı olaraq).

Müştərini müzakirələrin mahiyyəti üzrə hazırlamaq (məsələn, ümumi mediasiya iclasında müştəri hansı faktları qaldırmalıdır və hansı məlumatları açıqlamaq vacib deyil) müxtəlif yurisdiksiyalarda mediasiyanın xarakterindən, habelə hər bir vəkilin fərdi iş sistemindən və qabaqcadan müzakirə edilməli olan danışıqlar strategiyasından asılıdır.

**Nümunə 2.** Əgər vəkil müştərini başlanğıcdan sonadək müşayiət edirsə, vəkilin rolu mediasiya prosesində vəkildən nə dərəcədə köməklik tələb olunmasından asılıdır. Vəkillər istənilən halda hüquqi məsələlərdə məsləhətçi qismində çıxış edirlər.

Əgər tərəflərdən birini vəkil təmsil edirsə, mediator digər tərəfə də vəkilin köməklik göstərməsini tələb edə bilər. Mediasiya zamanı hər iki tərəfin vəkillərlə təmsil olunması mümkün olmadığı təqdirdə vəkillə təmsil olunmayan tərəf qarşı tərəfin vəkilinin iştirakına etiraz edərsə, mediator mediasiya prosesini davam edə bilməz. Bundan əlavə, tərəflərdən yalnız birinə vəkilin yardım etməsinin məqbul olub-olmadığını müəyyən etmək üçün mediatorlar tərəflər arasında qüvvələr balansının qiymətləndirilməsini aparmalıdırlar.

**Nümunə 3.** Adətən mediasiyanın əvvəlində mediator tərəflərin mövqeyini nəzərdən keçirir, bütün məsələləri qiymətləndirir və sonra tərəflərlə birlikdə həll edilməli olan məsələləri müəyyənləşdirir. Bu mərhələ, məsələn, iş “asan” olduqda bir saat çəkə bilər, lakin mürəkkəb işlərdə mediatorun metodologiyasından və mediasiya modelindən asılı olaraq iki iclasdan çox vaxt apara bilər. Yalnız bu mərhələdən sonra tərəflər konkret həll yolları axtarmağa başlamalıdırlar. Mediasiya prosesində həmin mərhələnin sonunda yekun razılaşmanın əldə edilməsi üçün müxtəlif variantlar müzakirə olunur. Belə razılaşma əldə edildikdə, adətən yazılı formada saziş rəsmiləşdirilir. Əgər vəkil bütün mediasiya prosesində deyil, mediasiyanın yalnız bir hissəsində iştirak etmək istəyirsə, uyğun həll yollarının seçilməsinə kömək etmək və lazım gələrsə məsləhət vermək üçün sazişin hazırlanmasından əvvəlki mərhələdə mediasiya prosesinə qatılmalıdır.

**Nümunə 4.** Əgər vəkil müştərini onun iştirakı olmadan təmsil edirsə (bu, ümumiyyətlə, tövsiyə edilmir və bəzi üzv dövlətlərdə mümkün deyil), vəkil mümkün qədər çox məlumata malik olmalı və müştərinin istəkləri, ehtiyacları və seçimləri ilə tam tanış olmalıdır. Mediator (hüquq sistemindən asılı olaraq) mediasiya prosesi üçün konkret göstərişlərin əks olunduğu etibarnamə tələb edə bilər.

### *d. Barışıq sazişinin tərtib edilməsi*

*Saziş nə vaxt imzalanmalıdır?*

Mediasiya zamanı əldə edilmiş razılaşma zamanın sınağına tab gətirməlidir. Razılaşma bu gün yaxşıdırsa, sabah və üç ay sonra da yaxşı olmalıdır.

Bu düşüncə tərzinə görə, mediasiya sessiyasının sonunda dərhal saziş imzalamaq mütləq "zərurət" deyil. Bununla belə, bu tez-tez baş verir və hətta ola bilər ki, qarşı tərəfin fikrini dəyişəcəyindən ehtiyat edən tərəflər bunu tələb etsinlər.

Saziş "sadə" olarsa (məsələn, birdəfəlik ödəniş edilməsini və həllini gözləyən mübahisələrin tam həllini nəzərdə tutarsa), sazişi dərhal imzalamaq daha məqsədəuyğun seçim ola bilər.

Əgər saziş daha mürəkkəbdirsə və müxtəlif mərhələlərdə icranı nəzərdə tutursa və ya müəyyən şərtlərdən asılıdırsa, sazişin dərhal hazırlanması yaxşı seçim olmaya bilər. Sazişin yaxşı düşünülmüş olması və razılaşmalar çərçivəsində qaldırılan bütün məsələləri əhatə etməsi üçün onun layihəsinin hazırlanması (bu çox vaxt uzun və ya yorucu iş olur) mediasiya sessiyasının sonunda sərəncamda olandan daha çox vaxt tələb edə bilər. Bundan sonra mediator tərəflər və onların vəkili ilə birlikdə layihənin hazırlanması prosesini təşkil etməli və elə hazırlanma qrafiki tərtib etməlidir ki, tərəflər onu qəbul edə bilsin.

*Sazişin mətnini kim yazır?*

Bir qayda olaraq, tərəflərin vəkilləri mediasiya prosesində iştirak edibsə, layihənin hazırlanması prosesi onların öhdəsinə buraxılmalıdır. Bu, onların işinin bir hissəsidir: onlar həll yolu tapmaqda əməkdaşlıq etmək və mediasiya zamanı əldə edilmiş razılaşmanı yazılı şəkildə tərtib etmək üçün müştəriləri tərəfindən işə cəlb edilirlər.

Sazişin tərtib edilməsi ortaya çıxan ümumi və əsas prinsiplərin mətnə daxil edilməsindən daha çox işləri əhatə edir. Mediator vəkilləri vəzifələrinin həmin hissəsindən məhrum etməməlidir (buna cəhd etməməlidir). Bu həm də həmin məqamda vəkillərin icraatda olan hər hansı məhkəmə işi üçün nəticələr doğura bilər. Onu da qeyd etmək lazımdır ki, çox vaxt mediatorlar ixtisaslı vəkil olmur və buna görə də onların hüquqi məsləhətlər verməsinə icazə verilmir.

Vəkillərin yardımı həm də sazişin icrasının təşkili və ya icrasına nəzarət məsələləri baxımından önəmli ola bilər (məsələn, saziş imzalandığı zaman borc məbləğinin tam ödənilmədiyi işdə kreditorun vəkilinin nümunəsində). Bu məsələlər aşağıdakıları özündə ehtiva edə bilər: məhkəmədən, notariusdan və ya digər orqandan icra sənədinin alınması, ödənişlərin təmin edilməsi üçün razılaşdırılmış təminat tədbirlərinin təşkili və s.

Sazişin tərtibi mediasiya zamanı adətən razılaşdırılmalı olan əsas məsələlər dairəsindən kənara çıxır. Bu zaman həm də ətraflı müzakirə olunmamış təfərrüatlar və ya məsələlər diqqət mərkəzində olur (bu həmin məsələlərin öncə diqqətdən yayınması səbəbindən baş verə ola bilər, yaxud onların əhəmiyyətinin ilkin olaraq görünməməsinin və yalnız saziş layihəsinin hazırlanması prosesində ortaya çıxmasının nəticəsi ola bilər və ya hər hansı digər səbəbdən, o cümlədən layihənin hazırlanması prosesinə qədər məlumatların məxfi saxlanması səbəbindən baş verə bilər). Bu məsələlər problemli görünə və yeni, öncədən görülə bilməyən çətinliklərə səbəb ola bilər.

Bəzi yurisdiksiyalarda mediasiya zamanı tərəflərə vəkil köməklik göstərməyibsə, onlar mediatordan müqaviləni özünün tərtib etməsini xahiş edə bilərlər. Əgər iş sadədirsə və yuxarıda qeyd olunan şərtlərə riayət edilibsə, bu qəbul oluna bilər. Lakin tərəflərin vəkilləri varsa, mediatorun onlarla əlaqə saxlaması tövsiyə olunur. Qabaqcıl təcrübə tələb edə bilər ki, mediator tərəflərin vəkillərinə mediatorun hazırladığı sazişin detallarının qısa xülasəsindən istifadə etməklə saziş layihəsini hazırlamağı öz üzərlərinə götürməyi təklif etsin.

Bununla belə, tərəflər və/və ya onların vəkilləri mediatordan saziş layihəsini təklif etməsini xahiş edərlərsə, o, peşəkar vəkillərlə məsləhətləşməklə yazılmalı və təsdiqlənməlidir; yəni mediator saziş layihəsini vəkillərə və tərəflərə nəzərdən keçirmələri üçün göndərməli, onların şərhlərini və təkliflərini istəməli və mümkün gərginlik yaradan məqamları müzakirə etmək üçün onlarla əlaqə saxlamalıdır.

Əgər mediasiyada heç bir vəkil iştirak etməyibsə, mediator öz saziş layihəsini tərəflərə təqdim etməli və nəticədə onlara sazişi müstəqil surətdə nəzərdən keçirmək üçün vəkillə məsləhətləşməyi təklif etməlidir. Hər hansı anlaşılmazlığın qarşısını almaq üçün mediator tərəflərə öz vəkillərini onunla əlaqə saxlamağa dəvət etməyi təklif etməlidir ki, razılaşmaların məntiqi və səbəbləri izah olunsun. Həqiqətən də, mediasiya prosesində iştirak etməyən vəkil razılaşmaların bütün parametrlərini və ya səbəblərini başa düşmədiyi üçün sazişin bəzi elementlərinə təəccüblənə bilər.

### *e. Barışıq sazişinin icrası*

Mediasiya haqqında 2008-ci il tarixli Direktivin 6-cı maddəsində nəzərdə tutulur ki, üzv dövlətlər mediasiya nəticəsində əldə edilmiş razılaşmaların icrasını təmin etməlidir. Üzv dövlətlər təmin etməlidirlər ki, digər tərəflərin birmənalı razılığı ilə tərəflər və ya onlardan biri mediasiya nəticəsində əldə edilmiş yazılı sazişin məzmununun məcburi icrasını tələb etmək imkanına malik olsun.

Belə sazişin məzmununun icrası məcburidir, lakin baxılan işdə həmin sazişin məzmununun sorğu edilən üzv dövlətin qanunvericiliyinə zidd olduğu və ya həmin üzv dövlətin qanunvericiliyində onun məcburi qüvvəyə malik olmasının nəzərdə tutulmadığı hallar istisna təşkil edir. Sazişin məzmunu məhkəmə və ya digər səlahiyyətli orqan tərəfindən sorğu edilən üzv dövlətin qanunvericiliyinə uyğun olaraq qətnamə və ya qərarla və ya autentik sənədlə məcburi icraya yönəldilə bilər.

Mediasiya yolu ilə əldə edilmiş sazişlərin icrasının məhkəməyə müraciət etməklə tələb olunması qaydası icranın tələb olunduğu dövlətdə tətbiq olunan milli qanunvericilikdən asılıdır (*locus regit actum*).

## *5. Mediatorun seçilməsi və təyin edilməsi*

Vəkillərin mediasiya prosesində ən mühüm vəzifələrindən biri də öz müştərilərinə mediatorun seçilməsi və təyin edilməsində köməklik etməkdir. Mediasiya o halda müştəri üçün ən yaxşı həll yolu ola bilər ki, o nəinki mübahisəni məhkəməyə çıxarmadan razılaşma yolu ilə həll etmək imkanı yaratsın, həm də vəkillərin üzərinə mediasiyanın uğur qazanması üçün mümkün olan maksimum şansı təmin etmək kimi böyük bir vəzifə qoyulsun. Mediatorun seçilməsi bu məqsədə çatmaqda mühüm amildir.

Müvafiq sektorda mütəxəssis təcrübəsinin dəyərliliyi ilə bağlı fərqli fikirlər mövcuddur. Məsələn, tikinti mübahisəsində mediator mühəndis, tikinti layihəsi rəhbəri, yoxsa inşaat sahəsi üzrə hüquqşünas olmalıdır? Mediatorun mediasiya sahəsində bilik və təcrübəsi birinci dərəcəli əhəmiyyət kəsb edir; əgər mediator qismində təyin edilə biləcək oxşar mediasiya təcrübəsinə malik bir neçə şəxs varsa və həmin şəxslərdən biri müvafiq sektora xas olan peşə təcrübəsinə malikdirsə, ola bilsin ki, həmin şəxsə üstünlük verilə bilər. Bir daha qeyd edək ki, müştərinin mediatorun vasitəçi kimi bilik və təcrübəsinə ehtiyacı var; mediatorun təyin edilməsi mütəxəssis təyinatı və ya ilkin neytral qiymətləndirmə prosesi deyil.

Tərəflər hesab edə bilərlər ki, müəyyən peşə təcrübəsinə və ya şəxsi təcrübəyə malik mediator konkret təyinat üçün daha uyğundur. Mediator kimi fəaliyyət göstərən və eyni zamanda insan resursları sahəsində təcrübəsi olan şəxsin təyinatı, məsələn, iş yerində mübahisə və yaxud özündə iş yerində ciddi münaqişə elementini ehtiva edən mübahisə hallarında vəkil-mediatora nisbətən daha yaxşı seçim ola bilər. Həmçinin bəzən mediatorların konkret terminləri və terminologiyanı başa düşməsi vaxta qənaət etmək baxımından üstünlük ola bilər. Bununla belə, tərəflər üçün əsas məsələ namizədin müvafiq peşə üzrə təcrübəyə malik olması deyil, həmişə mediator bacarıqlarına və təcrübəsinə malik olmasıdır.

Bəzən tərəflər konkret mübahisənin mühüm hüquqi aspektlərə malik olduğu, yaxud müqavilə, qanunvericilik və ya digər qanuni hüquq və vəzifələrin şərhi ilə bağlı olduğu hallarda vəkil-mediator təyin etməyə üstünlük verə bilərlər. Bununla belə, mediatorun hüquqi təcrübəsi onun vasitəçi kimi təcrübəsi və səriştəsi ilə müqayisədə həmişə ikinci dərəcəli əhəmiyyət kəsb etməlidir, çünki mediatorun bir-biri ilə ziddiyyət təşkil edən qanuni hüquq və vəzifələrin müəyyən edilməsində və ya

uzlaşdırılmasında hər hansı rolu yoxdur. Mediasiyada iştirak edən tərəflər mediasiya prosesində danışıqlara başlamazdan əvvəl öz hüquqi mövqelərini ən yaxşı şəkildə qiymətləndirmək üçün müvafiq vəkillərinə güvənməlidirlər.

Müştəriyə mediator təyinatında kömək edərkən həmişə aşağıdakı detallara aid məlumatların (əgər varsa) təsdiqini təkidlə tələb etmək tövsiyə olunur:

- Mediatorun peşəsi;
- Davranış kodeksi;
- Peşə məsuliyyətinin sığortası;
- Mediator kimi hazırlıq keçməsi və akkreditasiyası;
- Mediator kimi davamlı professional inkişaf təlimlərində iştirak etməsi;
- Təcrübəsi (yəni mediator kimi iş tarixçəsi);
- Zəmanətlər.

Mediatorun təyin edilməsindən sonra vəkillər aşağıdakı addımların atıldığına əmin olmalıdırlar:

- Tələb olunduqda və qarşılıqlı surətdə razılaşdırıldıqda, mediator öz xidmətini tərəflərə təqdim edir. Mediatorlar tərəflərin tələb etdiyi kimi bu təyinata prioritet verməyə hazır olmalıdırlar.
- Mediator özünün mediator qismində təyin olunduğunu təsdiqləyən, tərəflərin və mediatorun razılığı ilə onlar üçün məcburi qüvvəyə malik olan və konfidensiallıq, müddətlər, yer, sənədlərin mübadiləsi, ödənişlər, mediasiyaya xitam vermə və s. barədə qaydaları nəzərdə tutan mediasiya müqaviləsi bağlayır.
- Mediator təsdiq edir ki, o, Mediatorlar üçün Avropa davranış kodeksinə və ya onun ekvivalenti olan sənədlərə əməl edəcək və mediator kimi fəaliyyət göstərmək üçün müvafiq peşə məsuliyyəti sığortasına malikdir (əgər belə sığortası varsa).
- Mediatorda hər hansı səbəbdən bir və ya bir neçə tərəfin prosesi gecikdirdiyi və ya prosesə mane olduğu və yaxud mediasiya müqaviləsinin barışığa yönələn şərtlərinə zidd olaraq vicdanlı niyyətlə hərəkət etmədiyi barədə fikir formalaşarsa, o, istənilən mərhələdə prosesdən imtina edir və ya hər hansı digər üsulla prosesi başa çatdırır.
- İstənilən müştərək mediator və yaxud köməkçi və ya müşahidəçi kimi təklif olunan mediator eyni zamanda akkreditə olunmuş mediatordur və ya təcrübəçi mediatordur və yaxud bu vəzifəyə təyin edilmək üçün eyni dərəcədə müstəqil, neytral və uyğun mediatordur.

### 6. Mediatoru necə tapmalı

Vəkillər ən yaxşı mediatoru necə müəyyənləşdirirlər? Onu tapmaq üçün haraya üz tutmalıdırlar? Burada bir neçə variant var.

Müəyyən yurisdiksiyalarda bütün mediatorlar akkreditə olunub və onların konkret mediator ixtisaslarını göstərən siyahılar sərbəst şəkildə və asanlıqla əldə edilə bilər. Bir çox hallarda belə siyahıları internetdə əldə etmək mümkündür.

Vəkil birlikləri və ya hüquqşünas cəmiyyətləri təcrübəli yerli vəkil-mediatorların reyestrinə malik ola bilər.

Üzvlərinin reyestrini aparan beynəlxalq mediator təsisatı da ola bilər (məsələn, CIArb, CEDR, REUNITE və s.).

Mediatorların siyahıları adətən müxtəlif mediasiya sistemlərinə uyğun olaraq saxlanılır və ictimaiyyətə açıqlanır. Bu cür sistemlərin idarəçiləri adətən konkret iş üçün ən uyğun mediatorun seçilməsi ilə bağlı təlimat və yardım təklif edirlər.

Vəkillər digər tərəfin vəkilinə məktub yazaraq alternativ mediatorlar təklif edə və ya müştərilər digər tərəfin vəkilindən belə bir məktub ala bilərlər.

### *7. Mediator kimi fəaliyyət göstərən vəkillər*

Vəkillər məhkəmə prosesində müştərilərin vəkili kimi deyil, mediasiya prosesində mediator kimi çıxış etdikdə onlardan tamamilə fərqli düşüncə və yanaşma tələb olunur.

Bu konkret rolu icra edərkən, tərəflərdən hər hansı birinin mənafeyinə uyğun hərəkət etməkdən fərqli olaraq, vəkillər mediatora tətbiq edilən bütün tələblərə riayət etməli və tərəflərin razılığa gəlməsinə imkan yaradacaq həll yolu axtarmalıdırlar.

Bir sıra mediatorlar vəkillik peşəsində çalışsalar da, bir çoxları bu peşədə çalışmır və fərqli peşə təcrübəsinə və texniki təcrübəyə malik olurlar. Mediatorun vəkil olması tələb olunmasa da, vəkillərin malik olduğu bir çox bacarıqlar var ki, bu da onların effektiv mediator olmasına kömək edə bilər.

Vəkil-mediator üçün faydalı ola biləcək bəzi vəkillik bacarıqları bunlardır:

- Ünsiyyət;
- Dinləmə;
- Danışıqlar aparma;
- Təhlil aparma;
- Mürəkkəb məsələləri anlama;
- Hüquqi anlayışları, o cümlədən vicdanlı davranış, konfidensiallıq, şəxsi həyatın məxfiliyinin qorunması, imtiyaz, tərəflərin hüquqi statusuna xələl gətirməmək, müqavilə, məcburi hüquqi qüvvəyə malik, icrası məcburi olan, səlahiyyət, könüllü, tərəflərin özünün qərar verməsi, müstəqillik, neytrallıq, maraqlar toqquşması, etik davranış, peşə xətası və s. anlayışları başa düşmək;
- Ziddiyyətli hüquqi arqumentləri başa düşmək;
- İtki və mənfəətləri təhlil etmək;
- Risklərin qiymətləndirilməsi;
- Sənədlərin hazırlanması;
- Cəmiyyətdə nüfuza malik olma;
- Peşə sahəsində nüfuza malik olma;
- Məhkəmə sahəsində və məhkəmə çəkişmələrinin zərərli cəhətləri barədə təcrübəyə malik olma.

Digər tərəfdən, bütün vəkillik bacarıqları avtomatik olaraq mediatorluq bacarıqlarına çevrilmir və müvafiq ölkənin sistemindən asılı olaraq, mediator olmaq üçün yerinə yetirilməli olan xüsusi təlim və akkreditasiya tələbləri ola bilər. Mediatorlar üçün zəruri olan bəzi digər mühüm bacarıqlar bunlardır:

- Aktiv və reflektiv dinləmə;
- Hər bir tərəfin nöqteyi-nəzərini və onların kökündə duran hissləri anlaya bilmək;
- Mübahisənin əsas məqamlarını ümumiləşdirə və ifadə edə bilmək;
- Qərəzsiz və dəstəkləyici münasibət: mediator tərəf tutmamalı və ya ədalətsiz hərəkət etdiyi təəssüratı yaranmamalıdır;
- Etimad yaratma: uğurlu mediasiya üçün mediatordan tələb olunur ki, lap əvvəldən hər bir tərəfin inam və etimadını qazansın və proses boyu qoruyub saxlasın.

Beləliklə, vəkillər mediator kimi fəaliyyət göstərərkən yadda saxlamaldırlar ki, öz hüquqi bilik və bacarıqlarını həddindən artıq qabartmamalı, faktların aydınlaşdırılması səylərində tərəflərlə münasibətə və ünsiyyətə xələl gətirəcək dərəcədə ifrata varmamalı, çəkişmə xarakterli və məhkəmə tipli yanaşma tətbiq etməkdən çəkinməlidirlər. Yuxarıda qeyd edildiyi kimi, mediasiya sadəcə olaraq hər hansı prinsip və ya normalar toplusuna uyğun gələn arqumentlər və ya həll

variantları yaratmaq deyil, tərəflərin müxtəlif ehtiyac və maraqlarını başa düşmək və daha sonra uzlaşdırmaqdır.

### *Nəticə*

Yuxarıda qeyd edildiyi kimi, mediasiya tərəflərə qarşılıqlı maraqlarını və mövqelərini anlamağa kömək edən effektiv öyrənmə prosesidir. Mediasiya prosesi adətən hər iki tərəf üçün olduqca transformativdir. O, tərəflərə öz tələbləri və maraqları haqqında daha real düşünməyə kömək edir və onları qarşı tərəfə münasibətdə daha ağlabatan hərəkət etməyə təşviq edir. Bu, öz növbəsində, adətən tərəflərin münasibətlərini dəyişir, bəzi ünsiyyət və əməkdaşlıq formalarını bərpa edir və bütövlükdə vəziyyətin yenidən tənzimlənməsinə və onların mübahisəsinin həll olunmasına kömək edir. Beləliklə, mediasiya, bəzən gözlənilməz nəticələri ilə birlikdə, müştərilər tərəfindən məhkəmə çəkişməsindən üstün olan yaxşı və müsbət təcrübə kimi qəbul edilə bilər.

Vəkil tərəfindən dəstəklənən mediasiya olduqca faydalı ola bilər, çünki o, hər iki tərəfin keyfiyyətli müstəqil hüquqi məsləhətə malik olmasını, məlumatlı şəkildə dialoqa girəcəyinə əmin olmasını təmin edir və tərəflər arasında hər hansı güc balanssızlığını aradan qaldırmağa kömək edir. Aydındır ki, peşəkar mediatorun vəzifəsi tərəflərin və vəkillərinin əldə etdikləri bu cür yeni məlumatlardan və anlayışlardan istifadə edə bilmələrini təmin etməkdir ki, bu da tərəflər arasında konstruktiv proseslərin stimullaşdırılmasına və onların münasibətlərinin inkişafına şərait yaradır. Bu həyata keçirildikdən sonra mediator, birincisi, tərəflərin maraqlarına və onların konkret vəziyyətinə uyğunlaşdırılan, ikincisi, hər iki tərəf üçün həqiqətən məqbul olan, yəni mediasiya yolu ilə əldə edilmiş razılaşmaya əsaslanan yekun həll variantının tapılmasında və daha da təkmilləşdirilməsində tərəflərə kömək edir.

Yuxarıda göstərilən xüsusiyyətlərə malik həll variantı mübahisənin barışıq yolu ilə sona çatmasına imkan verir və bu, əsl həll yoludur. Bu, hər iki tərəf üçün uduşlu olan və hər iki tərəf üçün rahatlığı təmin edən həll yolu ola bilər. Şübhəsiz ki, müştərilərin nəzərində bu arzuolunan bir vəziyyətdir və buna görə də mediatorun vasitəçiliyi ilə tapılan həll yolu adətən müştərilər tərəfindən uğur kimi qəbul edilir. Bunu vəkillər də məhz belə başa düşməlidirlər. Ən əsası isə, bu uğura nail olunmasında vəkillər də iştirak etməlidirlər.

Yuxarıda göstərilən səbəblərə görə, vəkillərin (lazımi hallarda) mediasiyada aktiv şəkildə iştirak etmələri və elə hərəkət etmələri tövsiyə olunur ki, müştərilər onları bu prosesə yaradıcı və konstruktiv töhfə verən şəxslər kimi qəbul etsinlər. Mediasiya vəkillərə hüquqi, analitik və idarəetmə bacarıqlarını nümayiş etdirməklə yanaşı, özlərini əsl interpretator və müştərilərin maraqlarının təmsilçiləri və onların uğurlarının həmmüəllifi kimi təqdim etmək imkanı verir.

## *3-cü fəsil – Mediasiya üçün əlverişli mühitin yaradılmasına kömək etməkdə vəkil birliklərinin və hüquqşünas cəmiyyətlərinin rolu*

Bu hissədə vəkil birliklərinin və hüquqşünas cəmiyyətlərinin mediasiyanın tətbiqi üçün əlverişli mühitin yaradılmasına kömək etmək məqsədilə həyata keçirə biləcəyi tədbirlərə dair müxtəlif təkliflər verilir. Bu, məhkəmələrlə əməkdaşlıq etməyi, həmçinin mediasiya haqqında məlumatlılıq səviyyəsinin artırılmasını və vəkillərə mediator olmaları və ya müştərilərinə mediasiya prosedurlarında kömək etmələri üçün təlim kurslarının təşkilini əhatə edir.

Bununla əlaqədar olaraq həmçinin Aİ Parlamentinin və Aİ Şurasının "Mülkii və kommersiya işlərində mediasiyanın bəzi aspektlərinə dair" 21 may 2008-ci il tarixli 2008/52/EC saylı Direktivinin, habelə Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) "Avropa Şurasına üzv dövlətlərdə mediasiyanın daha yaxşı tətbiqinə dair rəhbər prinsiplər"inin Avropa Şurasına üzv dövlətlərdə tətbiq edilməsi haqqında Avropa İttifaqı Parlamentinin 12 sentyabr 2017-ci il tarixli qətnaməsindəki əsas nəticə və tövsiyələrə istinad edilir. Bu sənədlərdə həm də vəkil birliklərinə və hüquqşünas cəmiyyətlərinə üzərində düşünülməli olan maraqlı ideyalar təklif edilir.

Məhkəmə çəkişmələrinə və mübahisələrin həlli üzrə bütün alternativ proseslərə eyni dərəcədə açıq mühit yaratmaq üçün vəkil birlikləri və hüquqşünas cəmiyyətləri öz yurisdiksiyalarının şərtlərinə uyğun olaraq aşağıdakı fəaliyyətlərdən bəzilərini və ya hamısını həyata keçirməyi nəzərdən keçirə bilərlər:

- Vəkillər və tərəflər üçün məlumatlandırıcı görüşlər təşkil etmək. Bu məlumatlandırıcı görüşlər məhkəmələrin nümayəndələri, mediasiya assosiasiyaları, mediasiya xidmətləri və s. ilə birlikdə hazırlanmalıdır.
- Vəkillər üçün mübahisələrin idarə edilməsində tələb olunan mövzuları və bacarıqları (işin qiymətləndirilməsi; risklərin təhlili; itki və mənfəətlərin təhlili və s.) tərtib etmək və onların peşə hazırlığı təlimlərinə daxil etmək.
- Mediasiyaya aid məlumatların ötürülməsini məhkəmələrlə koordinasiya etmək.
- Vəkillər və hakimlər üçün birgə məlumatlandırıcı görüşlər təşkil etmək.
- Məhkəmələrlə mediasiyanın başlanmasını, mediasiya prosesini, onu müşayiət edən vəkilin prosesdəki rolunu və yerini müəyyən edən protokollar imzalamaq.
- Mediator kimi akkreditə olunmuş vəkillər daxil olmaqla, mediatorların siyahılarının hazırlanmasında məhkəmələr və digər orqanlarla əməkdaşlıq etmək.
- Mediasiyanın faydalılığını göstərən statistik məlumatların hazırlanmasında və onun effektivliyi barədə ictimaiyyətin məlumatlandırılmasında iştirak etmək.
- Müştərilər üçün mediasiya imkanları haqqında standart məlumatların, mediasiyaya dair nümunəvi maddələrin, tərəflər və mediatorlar arasında nümunəvi mediasiya müqavilələrinin hazırlanmasına töhfə vermək.
- Mediasiya üzrə qabaqcıl təcrübələrin mübadiləsini aparmaq (vəkillər arasında və müxtəlif yurisdiksiyalar arasında).
- Mediator qismində çıxış edən vəkillərin siyahılarını, habelə mediasiya prosesində müştərilərə kömək edə biləcək vəkillərin siyahılarını tərtib etmək.
- Universitet səviyyəsində mediasyanı və bu sahədə tədqiqatları təşviq etmək üçün hüquq fakültələri ilə protokollar imzalamaq.
- Müvafiq hallarda məhkəməyə müraciət etməzdən əvvəl mediasiya da daxil olmaqla, mübahisənin alternativ həlli üsullarının vəkillər tərəfindən nəzərdən keçirilməsinə və müştərilərinə müvafiq məlumat və məsləhətlər verilməsinə dair öhdəliyi və ya tövsiyəni vəkillərin davranış kodeksinə daxil etmək.
- Vəkillər üçün baza səviyyəli təlimlərə mediasiyanın istifadəsinə dair tədris modullarını daxil etmək.
- Davamlı təhsil proqramlarına mediasiyanın tədrisini daxil etmək və ideal halda onun məzmununu Avropa miqyasındakı proqramlarla əlaqələndirmək.
- Məhkəmə sisteminin bütün subyektləri ilə mediasiya üzrə birgə təlim kurslarının keçirilməsinə başlamaq.
- Mediasiya üzrə mövcud təlim kursları haqqında məlumatları toplamaq və dərc etmək.
- Vəkilləri müştəriləri üçün müqavilələr tərtib edərkən müqaviləyə mediasiya haqqında maddə daxil etməyə təşviq etmək.